# Dövlət qayğısı, işin düzgün təşkili, bir də halal zəhmət



**Respublikamızın əksər pambıqçılıq rayonlarında ilin əvvəlindən müəyyən edilmiş proqnozlar gerçəkləşsə də, yığım davam edir. Sahələrdə hələ məhsul tam yığılmayıb. Bu da o deməkdir ki, illər boyu unudulmuş pambıqçılıq sahəsində təcrübə ildən-ilə artdıqca məhsuldarlıq da yüksəlir.**

**Yüksək gəlirli texniki bitki əkinlərinin, eləcə də pambıqçılığın inkişafına yönəldilmiş dövlət proqramları, ölkə Prezidenti İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar, verdiyi mühüm göstərişlər Qarabağ bölgəsinin kənd əməkçiləri üçün də əlverişli şərait yaratmış, onlarda ənənəvi təsərrüfatçılıq sahələrinin dirçəldilməsinə marağı artırmışdır. Bu günlərdə bölgə müxbirimiz rayonlarda olmuş, yerlərdə işin təşkili, yığımın gedişi, əldə edilmiş konkret nəticələrlə maraqlanmışdır. Aşağıda onun qeydlərini dərc edirik.**

## Beyləqan

Bir tərəfi Qarabağa, bir yanı Muğana söykənən Mil düzü… Bərəkətli torpaqlar, əlverişli hava və iqlim şəraiti, bol su, ən əsası isə halal zəhmətə bağlı, işgüzar və mərd insanlar tariximizin bütün dövrlərində bu yerlərin qürur və iftxar mənbəyi olublar. Heç uzağa getməyək, ötən əsrin 70–80-ci illərində Beyləqan respublikanın ən böyük kənd təsərrüfatı rayonlarından birinə çevrilmişdi. Təkcə belə bir faktı xatırlatmaq kifayətdir ki, həmin illərdə rayonda 85 min tondan çox pambıq istehsal edilirdi.

Təəssüf ki, 80-ci illərin axırlarında keçmiş ittifaq dövlətinin süqutu və Ermənistanın ölkəmizə təcavüzü gedişində yaranan dağıdıcı proseslər, qarşıdurma, xaos və anarxiya Beyləqan rayonundan da yan keçmədi. Nəticədə, bütün sahələrdə görünməmiş tənəzzül və geriləmə baş verdi, ümumi məhsul istehsalı dəfələrlə azaldı, bir çox müəssisələr isə öz fəaliyyətini dayandırdı.

Bax belə bir taleyüklü dövrdə xalqımızın böyük oğlu Heydər Əliyev öz xilaskarlıq missiyasını qətiyyətlə yerinə yetirdi. Ümummilli lider xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gətirildi. Məhz bundan sonra ölkəmizdə sabitlik, dirçəliş və inkişaf dövrü başlandı, dağıdılmış iqtisadiyyat bərpa olundu.

Ulu öndərin yolunun ən layiqli davamçısı Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə son 16 ildə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları ölkəmizin həyatında yeni mərhələnin başlanğıcı oldu. Ölkə rəhbərinin çağırışı və təşviqi ilə son illərdə



taxılçılığın, pambıqçılığın, tütünçülyün, fındıqçılığın inkişafı ilə bağlı gerçəkləşdirilən kompleks tədbirlər aqrar sahədə hərtərəfli inkişafa yol açdı, böyük sıçrayışa səbəb oldu.

Elə buradaca təkcə Beyləqan rayonu üzrə bəzi xarakterik rəqəmləri yada salmaq yerinə düşərdi. 2012-ci ildə burada cəmi 1,2 min hektara yaxın sahədə pambıq əkilirdi. İndi isə bu rəqəm 9,7 min hektar təşkil edir. Bu günə kimi rayon üzrə 25,6 min ton məhsul yığılıb. Bu rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 1,5 dəfə çoxdur.

**Rayonun qabaqcıl fermerlərindən Əlizamin Nəbiyevlə görüşdük. O, son illər əldə edilmiş uğurların əsas səbəbləri barədə danışdı:**

– Burada, əlbəttə, ilk növbədə, ölkə Prezidenti İlham Əliyevin ənənəvi sahə olan pambıqçılığın inkişafına göstərdiyi diqqət və qayğı, bu istiqamətdə gördüyü məqsədyönlü, silsilə işlər qeyd edilməlidir. Təsadüfi deyil ki, bütün kəndlərdə pambıq əkini sahələri ildən-ilə genişləndirilir. Bizim fermer təsərrüfatı 2016-cı ildə cəmi 15 hektarda pambıq əkmişdi. Bu il isə əkin sahələrini 48 hektara çatdırmışıq. Hər hektarın məhsuldarlığı isə 60 sentnerdən yuxarıdır.

Onu da öyrəndik ki, Əlizamin Nəbiyev əldə etdiyi yüksək nəticələrə görə respublika Prezidentinin sərəncamı ilə "I dərəcəli Əmək ordeni" ilə təltif olunub.

Beyləqanda 2 emal müəssisəsi fəaliyyət göstərir: "MTK İK" MMC və "Azərpambıq ASC"nin rayon filialı. Hər iki müəssisənin fəaliyyəti ilə yaxından tanışlıq onu göstərdi ki, şum və səpin işlərindən başlayaraq, yığıma qədər bütün tədbirlər ilin əvvəlindən fermerlərlə bağlanmış müqavilə əsasında vaxtında və keyfiyyətlə aparılıb.

Cari ilin ötən aylarında rayonun sosial-iqtisadi həyatında əldə edilmiş göstəricilərin təhlili göstərir ki, bütün sahələrdə yüksək artım əldə edilib. Pambıqçıların nəticələri isə daha ürəkaçandır. İlin əvvəlindən müəyyən edilmiş hədəflər gerçəkləşdirilsə də, sahələrdə məhsul qurtarmayıb, yığım davam etdirilir.

## Tərtər

Bəri başdan belə bir sevindirici uğuru yada salaq: son illər Tərtər pambıqçıları hər hektarın məhsuldarlığına görə respublika üzrə birinci yerdədirlər. Cari ildə əldə edilən nəticə isə belədir: hələlik hər hektardan 32 sentner məhsul toplanıb. Hədəf mövsümün sonuna kimi bu rəqəmi 37 sentnerə çatdırmaqdır. Daha bir maraqlı fakt: bugünə kimi sahələrdən 11 min ton "ağ qızıl" toplanıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1,8 dəfə çoxdur.

Əldə edilmiş uğurların səbəbləri barədə düşünərkən, əlbəttə, ilk növbədə, ölkə Prezidenti İlham Əliyevin aqrar sahənin yerli təcrübə, tarixi ənənə və müasir tələbat əsasında inkişaf etdirilməsi ilə bağlı həyata keçirdiyi çoxsaylı tədbirlər, qəbul etdiyi qərarlar yada düşür. Pambıqçılıq, ümumən, respublikamız, o cümlədən Tərtər üçün ənənəvi sahə olsa da, təəssüf ki, son onilliklərdə tədricən yaddan çıxmış, nəticədə, məhsul istehsalı minimum həddə düşmüşdü. Məhz həmin tarixi qərarlardan sonra sahənin inkişafı ilə bağlı geniş tədbirlər işlənib hazırlandı. Pambıqçılığa diqqət və qayğı artırıldı, təhvil verilən hər kiloqram məhsula görə qiymət bir neçə dəfə qaldırıldı.

Digər mühüm amil isə yerlərdə işin düzgün təşkilidir. Fermer təsərrüfatlarının əksəriyyəti cəbhə xəttində, düşmənlə üz-üzə ərazilərdə yerləşsə də, burada, necə deyərlər, bir qarış da olsa boş yer qalmayıb. Dövlət qayğısından ruhlanan kənd əməkçiləri hər il pambıq əkinlərini genişləndirir, məhsuldarlığı yüksəldirlər. Bizə verilən arayışda oxuyuruq: Yuxarı Qapanlı, Qarağacı, Köçərli, Qazyan, Azad Qaraqoyunlu, Qaynaq kəndlərinin fermerləri məhsul yığımında xüsusilə fərqlənirlər. Adları çəkilən kəndlərdə hər hektarın məhsuldarlığı 38-40 sentnerə çatır.

**Rayonda fəaliyyət göstərən emal müəssisələrindən biri də "MKT-İK"dir. Direktor Feyruz Hacıyev işlərin gedişi, gündəlik yığım, fermerlərlə, kənd əməkçiləri ilə qarşılıqlı münasibətlərdən söz açdı:**

– Təkcə bizim müəssisə bu il 2 min hektardan çox sahədə pambıq əkilməsi ilə bağlı fermerlərlə müqavilə bağlayıb. Bugünə kimi 8 min tona yaxın məhsul yığılıb. Gördüyünüz kimi, sahələrdə hələ məhsul var. Ona görə də yığımı davam etdiririk. İlin əvvəlindən bugünə kimi kənd əməkçiləri ilə bağlanmış müqavilələrə vaxtında və keyfiyyətlə əməl edilib. Məhsulun qəbulunda da heç bir çətinlik yoxdur.

Onu da öyrəndik ki, Tərlan Zeynalov, Ramin Yusifov, Baxşeyiş Mehdiyev, Bahadur Museyibov kimi fermerlər hər hektarın orta məhsuldarlığını 40-44 sentnerə çatdırıblar. Bu isə, əlbəttə, bol qazanc, xoş gün-güzəran deməkdir.

**Zabil Quliyevin sorağı ilə Yuxarı Qapanlı kəndinə getdik. Bu yer cəbhə xəttinə yaxın olsa da, düşmən tərəf atəşkəsi hər gün pozsa da, kollektiv rayon üzrə ən yüksək nəticələr əldə edir. Burada hər hektarın məhsuldarlığı 52 sentner təşkil edir. Fermer əldə edilmiş uğurların əsas səbəbləri barədə danışarkən bunları dedi:**

– Ölkə Prezidentinin gündəlik diqqət və qayğısı, hərtərəfli dövlət dəstəyi olmadan, əlbəttə, bu uğurları qazanmaq olmazdı. Digər tərəfdən, bütün sakinlərdə ənənəvi sahə olan pambıqçılığa xüsusi həvəs və maraq var. Ona görə də əldə etdiyimiz göstəriciləri ildən-ilə artırırıq. Həm də nəzərə almaq lazımdır ki, pambıqçılıq olduqca gəlirli sahədir.

Bugünlərdə rayonda fermerlərin, kənd əməkçilərinin geniş toplantısı keçirildi. Orada mən də çıxış etdim. Bir fikri yenə xatırlatmaq istəyirəm: münbit torpaq, bol su, əlverişli şərait, ən başlıcası isə gündəlik dövlət qayğısı uğurlarımızın möhkəm özülüdür. Deməli, əsas iş qalır bizim özümüzə – kim yaxşı yaşamaq istəyirsə, yaxşı da işləməlidir.

## Yevlax

Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etsə də, etiraf edək ki, bu, digər bölgələrlə müqayisədə ikiqat-üçqat zəhmət və səy tələb edir. Məsələ burasındadır ki, torpaqların böyük bir hissəsi şoranlaşmaya meyillidir. Bu isə, əlbəttə, məhsuldarlığa mənfi təsirini göstərir.

Lakin son illər aparılan ardıcıl və intensiv meliorasiya tədbirləri müsbət nəticələrini verməkdədir. Bunu cari ilin göstəriciləri, xüsusilə, pambıqçılıqda əldə edilmiş uğurlar bir daha sübut edir. İlin əvvəlindən nəzərdə tutulmuş məqsəd yerinə yetirilsə də, yığım davam edir. Bugünə kimi yevlaxlı fermerlər 2,4 min hektardan 5,7 min ton məhsul toplayıblar. Həmin göstərici isə ötən ilin eyni dövrü ilə müqayisədə 122,3 faiz çoxdur. Hələlik rayon üzrə hər hektarın məhsuldarlığı 22 sentnerdir.

**Cari ildə yüksək göstəricilər qazanmış qabaqcıl fermerlərlə söhbət etdik. Rövşən Bostanov bildirdi:**

– Bizim Aşağı Qarxun, eləcə də Yuxarı Qarxun kəndlərinin sakinləri tarixən pambıqçılıqla məşğul olmuşlar. Ona görə ki, bizim camaatda bu sahəyə böyük maraq var, bu qiymətli məhsulun dilini yaxşı bilirlər. Təsadüfi deyil ki, pambıqçılığa münasibətin o qədər də yaxşı olmadığı illərdə də biz, bu sahədən əl çəkməmişik.

Ölkə Prezidenti İlham Əliyevin pambıqçılığın inkişafına göstərdiyi diqqət və qayğı bizə qol-qanad verdi. Əgər son 5-6 ilin rəqəmlərinə diqqət yetirsəniz, bir daha şahidi olarsınız



ki, pambıq əkini sahələri davamlı olaraq artırılıb. Deməli, ümumi məhsul istehsalı da yüksəlib. Bu isə, şübhəsiz ki, gün-güzəranımızın daha da yaxşılaşdırılmasına səbəb olub. Bizim fermer təsərrüfatı son illərdə əkin sahələrini 3 dəfə artırıb. Hələlik 67 ton məhsul yığmışıq. Hər hektarın məhsuldarlığı isə 30 sentnerdir. Builki məhsulumuz və gəlirimiz də nəzərdə tutulduğundan daha çox olacaq.

Emal müəssisələrindən aldığımız məlumata görə, rayonun qabaqcıl fermerlərindən olan Natiq Əsgərovun, Arzu Səfərovun, Əli Hüseynovun başçılıq etdikləri fermer təsərrüfatlarında da göstəricilər yüksəkdir– hər hektarın məhsuldarlığı 28-30 sentner təşkil edir.

## Goranboy

Rayon icra hakimiyyətində pambıq yığımı ilə əlaqədar olaraq yaradılmış operativ qərargahdan aldığımız son məlumat belədir: indiyə kimi rayon üzrə emal müəssisələrinə 6,7 min tondan çox "ağ qızıl" təhvil verilib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 2 min ton çoxdur. Nəzərdə tutulmuş hədəf artıq yerinə yetirilib. Məhsuldarlıq isə hələlik hər hektardan 23 sentnerdir. Mütəxəssislərin və qabaqcıl fermerlərin müşahidələrinə əsasən, bu rəqəm mövsümün sonunda, ən azı, 25 sentner olacaq.

Diqqəti cəlb edən maraqlı cəhət isə ondan ibarətdir ki, keçən illə müqayisədə pambıq əkini sahələri azalsa da, ümumi məhsul istehsalı və hər hektarın məhsuldarlığı xeyli yüksəkdir. Bu isə onun göstəricisidir ki, pambıqçılığa maraq böyükdür, qayğı isə daha da artıb, diqqət intensiv amillərə yönəldilib.

Yerlərdə işin gedişi ilə yaxından tanışlıq göstərdi ki, ayrı-ayrı fermer təsərrüfatlarında uğurlu göstəricilər daha yüksək olub. Məsələn, Arifə Tapdıqovanın, Şahin Qurbanovun, Əli Pirimovun, Rauf Həmidovun, Elmidar Məmmədovun təsərrüfatlarında hər hektarın məhsuldarlığı 35-40 sentnerə çatıb. Ümumiyyətlə, məhsul toplanışında Qızılhacılı, Borsunlu, Qazanlı, Səmədabad, Kəhrizli, Düzqışlaq kəndlərinin fermerləri xüsusilə fərqlənirlər.

Rayonda məhsulun emalı ilə 3 müəssisə – "Azərpambıq" ASC, "MTK-İK" və "Goran-Cotton" müəssisələri məşğul olur. Mövsümün əvvəlindən bağlanmış müqavilə əsasında fermerlər bütün güzəştli şərtlərdən istifadə ediblər. Məhsulun təhvilində və haqqının ödənilməsində də heç bir çətinlik yoxdur.

Bir sözlə, bu ilin proqnozu yerinə yetirilsə də, hələ sahələrdə xeyli məhsul var. Goranboylu fermerlərin bu mövsümdə məqsədi belədir: rayon üzrə ümumi məhsul istehsalını 7 min tona çatdırmaq. Uğur olsun pambıqçılar!

*Ziyəddin SULTANOV,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*